# Kredo

TARİX İNSANIN ƏQİDƏ VƏ İNAM UĞRUNDA MÜBARİZƏSİDİR!

№ 41 (1121) 12 oktyabr 2022-ci il | Qiyməti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır


# QƏDİMƏLİ ƏHMƏD - 65

***Qədimləinin şeirlərində təsvir olunan dünya (şair dünyası) genişdir. O, balaca ürəyə sığan o geniş dünyada "Çiçəkləyən ağacların budaqları arasında nəfəs dərir arılar", - "Göydəkilərdən yuxarı Allah, yerdəkilərdən yuxarı şah yaşayır", "Şəhid məzarlarının üstündə quruyan çiçəklər azadlıq deyir sanki..." ...Qədiməlinin bu obrazlı deyimləri onun kifayət qədər poetik duyuma malik olduğunu göstərir.***

**Vaqif YUSİFLİ.**

***Şairin (Qədiməli Əhmədin) yaradıcılığına diqqət yetirdikdə onun "Gələn baharadək dözəsən gərək", "Nəğməsi tüstülü ocaqdı payız", "Sıxılır buludun yaş kirpikləri", "Nə var yaşamağa", "Dünya belə gedir, a Məmməd Araz", "Dünya ilə şəkil çəkdim", "Məhəbbətim bu dağlardan başlanır" kimi şeirlərinin hər birində bir poetik təcrübə, özünəməxsus bədii çalar, özəllik vardır. Eyni zamanda onu da deyə bilərik ki, bu şeirlərdə şair şeirimizin ana vəzni olan hecaya da bir postmodernizm gətirir.***

**Yədulla AĞAZADƏ.**

***Qədiməli Əhməd ilk baxışda hamıya adi görünən hadisələri qələmə alarkən bir şair olaraq qabiliyyətini ortaya qoya bilir. Bu, ona görədir ki, şair həmin adilikdə həyat həqiqətlərinin əsl daxili mənasını açıqlayır. Oxucu görmədiklərini onun özünəməxsus istifadəsində görməyə başlayır.***

**Elman QULİYEV.**

## YAĞIŞLI GECƏNİ OXUMAQ

Hərdən mənə elə gəlir ki, hər bir şairin yazdıqlarını onun üzündən, gözündən də oxumaq olar. Sadəcə, bunun üçün örtülü tərəflərə nüfuz edə biləcək nəzərin olmalıdır. Sənətkarın yazdıqlarının məna, məzmun yükünü onun alnının qırışları ilə hərəkət etməklə də sözünə, gözünə yığa bilərsən. Bilmirəm, bu kimə nə dərəcədə müəssər olur. Hər halda, sənətkarın ruhuna, varlığına çökmüş olan dünya dərdlərini çəkə bilən dəvə ilə də müqayisə etmək çox da uğurlu görünməz. Amma dəvənin dərd obrazı daşıdığını, xalqın düşüncə məkanından düzgün əxz etsək, sözümüzün nə qədər uyarlı evə sahib olduğunu da kəsdirmək mümkündür.

Şair Qədiməli Əhmədi imzası ilə çoxdan tanıyıram və hər dəfə yeni bir şeirini oxuyanda onun varlığında hansı poetik gücün olduğunu da hiss etmişəm. Və hər vaxt görüşünün də istəyində olmuşam. Əgər belə demək mümkünsə, fərdi olaraq axtarmamışam. Qədiməli Əhmədi canlı olaraq 65 yaşından bir ay sonra redaksiyada gördüm; "Kredo"nun iş məkanında. Özü gördü ki, necə tikan üstəyəm.

İllər boyu görməyi arzuladığım şairi ayaqüstə qarşılayıb yola salmaq bəlkə də sonrakı təəssüratın məğzində bir acı yaddaş izidir.

Mənə elə gəldi ki, Qədiməli Əhməd yazdıqları üzündən, gözündən oxunan bir kitabdır. Çoxlarına olmasa da bəziləri haqqında demişəm. Kitaba bənzəyir. Həqiqətən, Qədiməli Əhməd ilk görünüşdə mənə kitab adam təsiri bağışladı.

Şair kəlmə kəsdiyi, ayaqüstü də olsa, görüşdüyünün yaddaşında kitab obrazı ilə qalırsa, zənnimcə, bu da sənətkarın təqdir olunan obrazına kifayət qədər yaddaş hökmü verir.

Sənətkarın kimliyi həmişə oxucunu düşündürür. Nə yazıb, harda, nə vaxt doğulub, sözü ilə tanınacan hansı yolları keçib, bir sözlə, bu da 65 yaşlı Qədiməlı Əhmədin tale yolu: *"Qədiməli Mahmudəli oğlu Ağayev 27 avqust 1957-ci ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. Bakı Dövlət Universitetin filologiya fakültəsini bitirib. "Hara tələsirsən, durna qatarı?", "Tənha kölgə", "Dünyamın dünyası", "Cəza saatları", "Xatirəyə dönən illər", "Öz məsafəndə" kitabının müəllifi; "Bəyaz saçların yaşıl işığında", "Elm və zəka işığında" kitablarının həmmüəlifidir. Əsərləri dövri mətbuatda müntəzəm yayımlanır. Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Beynəlxalq Rəsul Rza mükafatı" laureatı, Prezident təqaüdçüsüdür".* Gəldiyi kimi də hay-küysüz, səssiz



getdi. Yenicə nəşr olunmuş "Uzaqlaşan yaxınlar" kitabını uzatdı. Avtoqrafsız, əlavə təmtəraqsız.

Özündən sonra kitabı vərəqlədim. Haqqında yazılanları oxudum. Professorlar Vaqif Yusiflinin, Yədulla Ağazadənin, Elman Quliyevin, alimlər F.Mədətovun, Y.Qəhrəmanovanın, şairlər A.Həsənlinin, Balayar Sadiqin, Hikmət Məlikzadənin. A.Əliyarın... qeydləri kifayət qədər bir şair obrazını dərk etmək üçün bələdçi olmaq gücündə yazılan ürək sözləridir. Və ən başlıcası, tədqiqatçılar onun sözün həqiqi mənasında istedadlı və obrazlı təfəkkür şairi olduğunu səmimiyyətlə etiraf edirlər: "Bu, şimallı qocanın nimdaş arzularıdır, çin olub xeyli vaxtdır ölüm hücrələrində". Mən deyə bilmərəm ki, bu misralara kim necə məna verib. Ancaq mənə elə gəldi ki, mən bu misraların motivində qocalmış, qartmış şimallı tamahkarın niyyəti ilə ayaqladığı ərazilərdə ölümünü görürəm. Bütöv bir tarixi, bütöv bir siyasi mənzərəni kiçik ölçülü dörd misrada və yaxud bircə cümlənin içərisində bu qədər dərəcədə ustalıqla vermək hər kəsə nəsib olan keyfiyyət deyil. Bunun üçün zəngin təfəkkür, ümumiləşdirmə istedadı və poetik güc olmalıdır. Yaxud, həmin şeirin davamına diqqət edək: "İndi yad qarğaların səsi qulaq batırır. Yenə son aldanışlar adım-addım böyüyür". Zənnimcə, şair yuxarıda verdiyi mənanı bir az da dərinləşdirir və dünya siyasi arenasına çıxarır. Bu hər halda Qədiməli Əhmədin poetik düşüncə adamı olmağından başqa həm də dünyanı dərk gücündə olan zəngin təfəkküründən xəbər verir.

Çox şaxələnən təhlillərə getmək imkanım olmasa da, mən Qədiməli Əhmədin həmin şeirinin davamında dənizdən qaçaq düşən qağayıları və kimsəsizləşən fikir sularını da aydın təsəvvür edirəm. Mənə çatır ki, şair "Dəniz şərqilərinin səsini uzaqlara apardı sərt küləklər" deyəndə hansı mətləblərə işarə vurur. Bir sözlə, şair həmin şeirin sonunda dünyanın artıq həminki olmadığı qənaətinə də gəlir.

Beləcə, Qədiməli Əhmədin uzaqlaşan yaxınlarını misra-misra, sətir-sətir, söz-söz çözmək olar və onun hansı mənaları sözün yeddi qat örtüyə necə bürüyüb oxucuya təqdim etdiyini də sezmək mümkündür.

"Uzaqlaşan yaxınlar"... Doğmalar, dostlar zaman keçdikcə öz yaxınlıqlarından kənara çəkilirlər. Hansı səbəbdənsə, (həyat, tale, qəza, qədər səbəbləri də daxil) uzaqlaşan yaxınları müxtəlif tərəflərdən xarakterizə etmək olar. Və bu zaman biz yaddaşımızın yaxınlığında olanların da vaxt ötdükcə zaman uzaqlığını müşahidə edə bilərik. Tədqiqatçı Y.Qəhrəmanova yazır: "Şairi təsəvvüründə şam kimi yanan ürəyin işığına yığışan xatirələr kölgətək izinə düşən qaranlıq kimidir; baxdıqca görünməz. Nə uzağına əlin çatar .nə yaxınına. Heç yollar da qayıtmaz". Zənnimcə, Qədiməli Əhmədin üslubuna uyğun yanaşmadır. Və tədqiqatçı Qədiməli Əhmədin poetik ruhunun ritmini düzgün tutur.

Qədiməli Əhməd dərin poetik düşüncəsinə görə elə dərindən və əhatəli tədqiq olunmalıdır.

Şairlərin böyüklüyü bircə şeirindən, bəlkə də bircə misrasından da bilinər, görünər. Qədiməli Əhmədi görmək üçün onun bircə şeirinin mahiyyətinə varmaq bəs edir.

*Ə.R.XƏLƏFLİ*
*11.20.2022*